

**RAMİZ MİRZƏYEV,**
«Azərneftyağ» neftayırma
zavodunun direktoru

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN NEFT SƏNAYESİNİN YENİDƏN QURULMASININ BANİSİ VƏ TƏŞKİLATÇISIDIR

Neft Azərbaycanın qədim və zəngin sərvətidir. Ölkəmizdə neft sənayesinin tarixi yüz əlli ildən çox olsa da, əcdadlarımız bu "möcüzəli" mayeni daha əvvəllərdən tanımış, onun istehsalı və müxtəlif məqsədlərlə işlədilməsilə neçə əsr öncə məşğul olmuşlar. Zaman keçdikcə bəşəriyyət əvvəlcə quruda, daha sonralar isə dənizin dibində yerin təkindən çıxan neftin imkanlarını daha dərindən öyrənmiş, ondan təkcə müalicə vasitəsi kimi deyil, həm də istilik və işıq alınmasında, ən nəhayət şəhərlər və ölkələr arasında məsafənin "qısaldılmasına" kömək göstərən sürətli hərəkətin yaranmasında başlıca vasitə kimi istifadə etməyə başlamışlar. Neftin geniş imkanları və iqtisadiyyata təsiri vasitələri aşkara çıxdıqca, onun qiyməti və ona olan tələbat da artırdı. Belə ki, elm və texnika inkişaf etdikcə, bir tərəfdən neft və neftdən alınan məhsullara ehtiyac çoxalırdı, digər tərəfdən isə elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi hesabına neft hasilatını yüksəltmək mümkün olurdu. Belə bir vəziyyət XIX əsrin ikinci yarısından Bakıda müşahidə edilməyə basladı. Abşeron yarımadasında zəngin neft ehtiyatlarının mövcudluğu aşkara çıxarıldıqdan sonra dünyanın hər yerindən sərmayəçilər, iş adamları, sənayeçilər, alim və mütəxəssislər Bakıya axışmağa başladı. "Qara qızıl" hesabına Bakıda zəngin adamlar, yeni milyonçular yaranırdı. Kiçik torpaq sahələri baha qiymətə alınır, orada neft fontan vurduqda isə sahibi qısa vaxtda milyonçuya çevrilirdi. Bir qədər keçmiş neftin xam halda daşınaraq xaricdə satılmasının iqtisadi cəhətdən əlverişsizliyi məlum oldu. Bu, emal sənayesinin yaranmasına və sürətli inkişafına təkan verdi. Əvvəlcə kerosin zavodları, daha sonralar digər emal müəssisələri yaradıldı, get-gedə təkmilləşdirilərək istehsal imkanları artırılmağa və genişləndirilməyə başladı. Abşeronda neftçıxarma və emal sənayesi inkişaf etdikcə, Bakı sənayecə yüksəlir, dünya şəhərinə çevrilirdi.

Rusiyada sosialist inqilabının baş verməsi, XI ordu tərəfindən Azərbaycanın işğala məruz qalması, respublikamızın SSRİ adlı super dövlətin tərkibinə qatılması ictimai-siyasi həyatda müəyyən dəyişikliklər yaratsa da, neftin çıxarılması və emalı yenə də sənayenin əsas sahəsi olaraq qalmaqdaydı. Bu sahənin stabil inkişaf etdiyini söyləmək də olmaz. Ötən əsr ərzində Azərbaycanda neftçıxarma və emal sənayesinin inkişafı daim qabarma və çəkilmələrlə müşahidə olunmuşdur.

İkinci dünya müharibəsinin başlanması bu sahənin inkişafını xeyli sürətləndirdi. 1941-1945-ci illərdə Bakı döyüşən ordunun mühüm cəbhəxanalarından birinə çevrilmişdi. Paytaxtımızda 130 növdə silah, xeyli sursat istehsal edilirdi. Azərbaycan neftçiləri və neftayıranları gecə-gündüz yorulmaq bilmədən çalışır, cəbhəni yanacaq və zəruri neft məhsulları ilə təmin edirdilər. Təsadüfi deyildi ki, həmin dövrdə hər beş təyyarə, tank və avtomaşından dördü Bakının neft emalı zavodlarında istehsal olunmuş benzinlə işləyirdi. Akademik Yusif Məmmədəliyev böyük bir kəşf edərək aviasiya benzini istehsalının yeni texnologiyasını hazırladı. Beləliklə, Azərbaycanda yüksək oktanlı benzin istehsalına başlandı. İkinci Dünya müharibəsi illərində Azərbaycan neftçiləri Sovetlər Ittifaqina 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları verməklə faşizm üzərində qələbənin əldə edilməsində həlledici sözlərini dedilər.

Müharibədən sonrakı illərdə də sənayenin bu vacib sahələri inkişaf etdirilmiş, respublikamızın iqtisadiyyatı və mədəniyyəti yeni yüksəliş dövrünə qədəm qoymuşdu; Hətta, bu sahələrin inkisaf səviyyəsi 1948-ci ildə müharibədən əvvəlki səviyyəni ötüb keçmiş, ağır sənayenin neft maşınqayırması, kimya və neft kimyası, qara və əlvan metallurgiya, cihazqayırma və elektrotexnika kimi yeni sahələr yaranmisdi. Lakin sonraki illərdə inkişaf heç də sabit qalmamisdi. Belə ki, 60-cı illərdən baslayaraq respublika iqtisadiyyatında mənfi meyllər görünməyə başlamışdı. Azərbaycanda milli gəlirin inkişaf tempi, sənaye və kənd təsərrüfatı istehsalının həcmi, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsi, habelə ictimai əməyin məhsuldarlığı göstəriciləri ümumittifaq göstəricilərindən geri qalırdı. Bütün bunlar isə öz növbəsində sosial sahəyə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə mənfi təsir göstərirdi.

1969-cu ildə Azərbaycanın həyatında çox əlamətdar bir hadisə baş verdi: Xalqın böyük oğlu, qeyri-adi zəka və istedad sahibi cənab Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Bununla da "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" adlandırılan böyük bir mərhələsi başlandı. Bütövlükdə bu dövr xalq təsərrüfatının bütün sahələrinin coşğun inkişafı, tikinti-quruculuq işlərinin görünməmiş vüsəti, kənd və şəhərlərimizin simasının əsaslı şəkildə dəyişməsi, elm, maarif, mədəniyyət, səhiyyə və mənəvi yaradıcılığın bütün sahələrinin güclü yüksəlişi, xalqın həyat şəraitinin durmadan yaxşılaşması ilə xarakterizə olunur. Heydər Əliyevin coşgun və qeyri-adi təşkilatçılıq məharəti, yaradıcı və uzaqgörən fəaliyyəti, tükənməz enerjisi və işgüzarlığı sayəsində Azərbaycanın neft sənayesində ciddi dönüş və yüksəliş yarandı.

Zati-aliləri Heydər Əliyev Azərbaycana ilk dəfə rəhbərlik etməyə başlayanadək neftçıxarma sənayesində ciddi gerilik yaranmışdı. Belə ki, neftin ümumi hasilatı əvvəlki göstəricilərlə müqayisədə 1,3 milyon ton, qaz hasilatı isə 659 milyon kubmetr azalmışdı. Başlanmış tənəzzülün dayandırılması üçün radikal tədbirlər görüldü, neft sənayesində ciddi yenidənqurma başlandı. Cənab Heydər Əliyevin təşəbbüsü və fəal iştirakı ilə "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı hazırlanaraq mərkəz tərəfindən təsdiq edildi. Görülən işlər



və həmin planın mərhələlərlə icrası bu sahədə əvvəlcə kəmiyyət, daha sonralar isə həm də keyfiyyət dəyişikliklərinə səbəb olurdu. Az vaxtda geoloji kəşfiyyat işlərinin səmərəliliyi xeyli artdı, 8 yeni yataq kəşf edildi. Neftin sənaye ehtiyatlarının həcmi iki dəfə çoxaldı. SSRİ məkanındakı böyük nüfuzundan və şəxsi hörmətindən istifadə edən cənab Heydər Əliyev ittifaqın digər bölgələri üçün nəzərdə tutulan nəhəng qurğu və zavodların Azərbaycana gətirilərək Bakıda qurulmasına nail olurdu. Beləliklə, yeni texnika və texnologiyalara əsaslanan zavodlar yaradılır, yeni, müasir qurğular inşa edilir, fiziki və mənəvi cəhətdən köhnələn qurğu və avadanlıqlar isə sökülürdü. Bu, Azərbaycan üçün son dərəcə vacib olan digər bir məsələnin, ətraf mühitin mühafizəsinin yaxşılaşdırılması məsələsinin həllinə də imkan yaradırdı. Çox baha qiymətə xaricdən alınan yeni qurğular ekoloji cəhətdən təmiz fəaliyyət göstərdiklərindən ətraf mühitə zərər yetirmir, atmosferi çirkləndirmirdilər. Artıq evlərin və küçələrin rəngi ilə fərqlənən "Qaraşəhər" təmizlənərək simasını dəyişir, bu ad simvolik məna kəsb etməyə başlayırdı. Bu gün isə "Qaraşəhər"in ilkin görkəmindən əsər-əlamət belə qalmamışdır.

Möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövr həm də onun tərəfindən çox böyük müdriklik və uzaqgörənliklə hazırlanaraq uğurla həyata keçirilən yeni neft strategiyasının ilkin bazasının yaradıldığı illər hesab olunur. 1970-1980-ci illər ərzində bu sahədə ölkəmizdə çox böyük işlər görüldü. Sanki cənab Heydər Əliyev tezliklə Azərbaycanın dövlət müstəqilliyi qazanacağını irəlicədən sezmişdi. Onun göstərişi ilə Xəzərdə iri gəmilərdən, təchizat gəmilərindən, borudüzənlərdən, xüsusi seysmik tədqiqat və axtarış gəmilərindən ibarət güclü neft donanması yaradılmışdı. Bir sıra qazma qurğularının yaradılmasında da möhtərəm Heydər Əliyevin böyük xidmətləri var. Diqqəti çəkən bir fakt. Həmin vaxtlar Xəzərdə suyun dərinliyi 40 metrə çatan sahələrdə bütün neft-qaz yataqları kəşf edilərək istismara verilmişdi. Daha dərin yerlərdə iş görməkdən ötrü isə yeni, dərin qazma qurğularına ehtiyac duyulurdu. Amma həmin dövrdə nəinki Azərbaycanda, heç SSRİ-nin digər yerlərində də belə qurğular nə layihələndirilir, nə də inşa olunurdu. Son dərəcə nüfuzlu və cəsarətli, sözükeçən insan lazım idi ki, bu missiyanı yerinə yetirə bilsin. Uzaqgörən və səmərəli fəaliyyəti ilə zati-aliləri Heydər Əliyev həmin vəzifəni şərəflə yerinə yetirdi və bununla da Azərbaycan neft sənayesinin iki əsr ərzində uğurlu fəaliyyətinə möhkəm maddi-texniki baza yaratmış oldu. Dəyəri 400 milyon ABŞ dollarından baha olan dərin dəniz qazma qurğuları Bakıya gətirilib layihələndirilərək inşa olundu. Nəticə çox uğurlu oldu. 12 il ərzində Azərbaycanda 12 ədəd belə qurğu hazırlandı. Əvvəlcə dənizin dərinliyi 70 metrədək olan sahələrdə, sonra isə 200 metrədək dərinlikdə qazma işləri aparılmasına imkan yarandı. Danılmaz faktdır ki, əgər həmin zavod Azərbaycanda inşa olunmasaydı, müxtəlif qurğu və gəmilər gətirilməsəydi, indi nə "İstiqlal", nə "Çıraq", nə də "Dədə Qorqud" platformaları vardı! Çünki hazırda dənizin dərin qatlarında qazma aparmağa imkan verən müasir qazma qurğuları "Şelf" tipli həmin qurğuların əsasın-

da düzəldilmişdir. Lakin təkcə dərin qazma qurğuları ilə məsələ bitmirdi. Belə qurğuların işini təşkil etmək üçün çoxsaylı gəmilər gərək idi. "Süleyman Vəzirov", "İsrafil Məmmədov" kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, habelə digər texniki gəmilər həmin dövrün yadigarlarıdır. Ümumilikdə belə gəmilərin sayı 400-ü keçmişdi.

Neft emalı sənayesi də əsaslı şəkildə yenidən qurulurdu. Yenə də zati-aliləri Heydər Əliyevin qayğısı və uzaqgörənliyi sayəsində 1976-cı ildə "ELOU-AVT", 1980-ci ildə "Katalitik Riforminq", 1986-cı ildə "Neftin kokslaşdırılması", 1993-cü ildə "Katalitik Krekinq" qurğularının inşası, habelə onun rəhbərliyi ilə respublikamızda görülən digər işlər, yaradılan möhkəm təməl bu gün müstəqil Azərbaycanda dünya standartlarına uyğun neftayırma sənayesinin formalaşmasına imkan yaratmışdır.

Möhtərəm Heydər Əliyev daim neftçilərə qayğı göstərmiş, onların gərgin əməklərini yüksək qiymətləndirmişdir. Cənab Heydər Əliyevin təklif və təqdimatı əsasında neftçilərdən 3 nəfəri "Sosialist Əməyi Qəhrəmanı", 22 nəfəri əməkdar səmərələşdirici, inşaatçı, geoloq və neft ustası fəxri adlarına layiq görülmüşdülər.

Zati-aliləri Heydər Əliyev SSRİ rəhbərliyində işləmək üçün Moskvaya getdikdən sonra Azərbaycanın neft sənayesində bir geriləmə və tənəzzül müşahidə olunmağa başlamışdı. Doğrudur, 1985-ci ildə yüksək neftqaz potensialına malik "Çıraq" yatağı, 1987-ci ildə isə "Çıraq"dan cənubqərbdə, Abşeron-Balaxanı qalxım sahəsinin davamında yüksək neftqaz ehtiyatına malik daha bir yataq "Azəri" neftqaz yatağı kəşf edilmişdi. Lakin bu yataqların mənimsənilməsində respublikamız böyük problemlərlə üzləşdi. Çünki yataqların kəşfi dövrü Sovet hakimiyyətinin dağılması, Azərbaycanın müstəqillik yoluna qədəm qoyması ilə eyni vaxta düşmüşdü. Bu dövrdə neft sənayesinin, eləcə də Azərbaycanın bu yataqların işlənməsi üçün lazımi səviyyədə iqtisadi və texniki imkanları yox idi. İki yol qalırdı: ya yataqların mənimsənilməsindən ötrü vəsait və texniki imkanların yaranması üçün 1015 il gözləməli, ya da xarici şirkətlərin gücü ilə iş aparılmalıydı. Ən doğru variant vaxt itirmədən işə başlamaq idi. İlk dəfə hələ 1989cu ildə "Azəri" yatağında xarici şirkətlərlə birgə işləmək barəsində təklif irəli sürüldü və tender elan olundu. Tenderin şərtləri dünyanın 16 böyük neft şirkətinə göndərildi. Bunlardan ancaq 6 şirkət tenderdə iştirak etdi. 1992-ci ildə bu tenderə "Çıraq", daha sonra "Günəşli"nin dərin hissəsi də əlavə olundu. Müqavilə ilə bağlı illər boyu danışıqlar getməsinə baxmayaraq, konkret nəticə yox idi. Onun reallaşması istiqamətində əsas iş yalnız 1993-cü ildən, zati-aliləri Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra görüldü.

AXC-Müsavat cütlüyünün səriştəsiz iqtidarı Azərbaycanı fəlakət həddinə çatdırdı. Bir ildən də az çəkən müddətdə "bəy"lər öz "fəaliyyətləri" ilə ölkədə qanunsuzluğa və özbaşınalığa rəvac verdilər, xalqın varidatını, hətta fabrik və zavodların anbarlarındakı xammal və materialları belə satıb sovuraraq, xaricə daşıyıb mənimsəyərək iqtisadiyyatı bərbad günə qoydular. Ölkə əhalisinə çörək əvəzinə jmıx yedizdirən bu naşılar təkcə Azərbaycanın müstəqilliyini yox, bir dövlət kimi mövcudluğunu da real təhlükə qarşısında qoymuşdular. Xalqın təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Zati-aliləri Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, bir dövlət kimi məhv olmadan qurtarmaqla yanaşı, ümummilli böhranın və iqtisadi tənəzzülün də qarşısını aldı, ciddi dönüş və yüksəlişə nail oldu. Şübhəsiz, iqtisadiyyatın bərpa və dirçəldilməsində iqtisadi islahatlar aparılmasının mühüm rolu olmuşdur. Lakin yeni neft strategiyası Azərbaycan iqtisadiyyatının bataqlıqdan çıxarılaraq sürətlə inkişafının lokomotivinə çevrildi. Zati-aliləri Heydər Əliyevin böyük uzaqgörənlik və müdrikliklə hazırladığı yeni neft strategiyası əslində ölkə qarşısında duran siyasi xarakterli vəzifələrin də həyata keçirilməsini təmin etdi. Azərbaycan iqtisadiyyatı uzun sürən böhrandan qurtardı, neft müqavilələri əsasında respublikaya gətirilən sərmayənin bir qismi qeyri neft sektoruna yönəldilərək həmin sahələrin inkişafına kömək etdi, ölkəmiz dünya birliyinə sürətlə inteqrasiya olunmaga basladi, dövlət büdcəsinə daxilolmalar çoxaldığından xalqın güzəranını yüksəltmək imkanı yarandı və s. Ölkə daxilində möhkəm və dönməz sabitliyin yaranması və yeni neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə, əbədiliyə və dönməzliyə çevrilməsinə şərait yaratdı. Zati-aliləri Heydər Əliyev yeni neft strategiyasını belə qiymətləndirirdi: "1994cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin müqaviləsi" adını almış neft müqaviləsinin 20 sentyabr 1994-cü ildə imzalanması ilə yeni neft strategiyası reallaşmağa başladı. Əvvəlki iqtidarların heç birinin bacarmadığı bir işi görmək, dünyanın aparıcı dövlətlərinin iri neft şirkətlərinin maraqlarının Azərbaycanın milli maraqlarına uyğunlaşdırıldığı neft müqavilələri hazırlayaraq imzalamaq elə də asan məsələ deyildi. Üstəlik, təkcə xaricdə yox, respublika daxilində də neft müqavilələrinin bağlanmasını istəməyən qüvvələr var idi və onlar sakit dayanmırdılar. Lakin bütün manea və əngəllərə baxmayaraq, Azərbaycan Dövlət Neft Sirkətinin birinci vitse-prezidenti İlham Əliyevin də yaxından və fəallıqla iştirak etdiyi neft danışıqları öz gözəl bəhrəsini verdi. Azərbaycana düşmən qüvvələrin sapı özümüzdən olan baltaların köməyi ilə törətdikləri təxribat, terror və sui qəsd əməlləri bu möhtəşəm müqavilənin imzalanmasına maneçilik törədə bilmədi.

"Əsrin müqaviləsi"ndən sonra 14 dövlətin 30-dan çox iri neft şirkəti ilə Xəzərdəki karbohidrogen ehtiyatlarının istismarı ilə bağlı daha 20 saziş imzalandı. Bu isə bütövlükdə Azərbaycanın neft sənayesinə 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulmasına təməl yaradir. Artıq ölkəmizin neft sənayesinə 6 milyard ABS dollarından artiq sərmayə yatırılmış, böyük həcmdə işlər görülmüşdür. Çıraq yatağından "əsrin müqaviləsi" çərzivəsində 7 noyabr 1997-ci

ildə ilkin neft çıxarılmış və Baki-Novorossiysk boru kəməri vasitəsilə dünya bazarına axıdılmışdır. Nazirda Bakı-Sursa marşrutu ilə də neft ixracı müvəffəqiyyətlə davam etməkdədir. Qafqazın münaqişələr bölgəsindən əməkdaşlıq bölgəsinə çevrilməsi uğrunda yorulmadan, səmərəli və məqsədyönlü mübarizə aparan Zati-aliləri Heydər Əliyev Xəzər neftini yenidən ikinci dəfə dünya üçün kəşf etmişdir. Bu gün Abşeron dünyanın zəngin enerji mərkəzlərindən birinə çevrilməkdədir. Yeni neft strategiyasının ən böyük uğurlarından biri Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallığa çevrilməsi və onun inşasına başlanmasıdır. İdeya müəllifi və baş memarı Zati-aliləri Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri dövrün ən nəhəng mühəndis qurğularından sayılır. Xəzər neftinin belə bir marşrutla dünya bazarına çıxarılması ideyası ilk dəfə meydana atılanda çoxları onu utopiya hesab edirdi və onun əleyhdarları tərəfdarlarından çox idi. Lakin cənab Heydər Əliyev sona qədər dönmədən mübarizə apardı, hamını inandırmağı, hətta fikrindən döndərməyi bacardı. Beləliklə, "üç dəniz əfsanəsi" xəyaldan gerçəkliyə çevrildi, 18 sentyabr 2002-ci ildə Azərbaycan prezidenti cənab Heydər Əliyevin, Türkiyə prezidenti cənab Əhməd Necdət Sezərin və Gürcüstan prezidenti cənab Eduard Şevardnadzenin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi keçirildi. Gürcüstan vasitəsilə Aralıq dənizi sahilinə Ceyhan limanına çatan bu kəmərin ümumi uzunluğu 1760 kilometr, borunun diametri isə 42 düymdür. Xam neft 8 nasos vasitəsilə borularla axıdılacaq. Boru kəməri 1500-dən çox çayla kəsişəcək, ən hündür nöqtəsi 2700 metr yüksəklikdən keçəcək və Ceyhanda dəniz səviyyəsinə enəcək. Layihə dəyəri 2,90 milyard ABŞ dolları olan kəmərin Azərbaycanın ərazisində görüləcəyi nəzərdə tutulan işlərinin on faizindən çoxu yerinə yetirilib. Bütövlükdə inşaat işləri 2004-cü ildə başa çatacaq və 2005-ci ilin yazında BTC "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının Faza-1 layihəsi üzrə işlənməsi çərçivəsində "Azəri" yataginin mərkəzi hissəsindən çıxarılacaq nefti dünya bazarına ixrac edəcək. Onu da qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimində "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi üzrə "Faza2" layihəsinin həyata keçirilməsi sanksiyalasdirildi. 2008-ci ildə isə üçüncü fazanın işlənməsi tamamlanacaq və o zaman ümumi yataqlardan hər gün 1 milyon barel neft çıxarılacaq. Həmin neft də Bakı-Tbilisi-Ceyhan kəməri ilə daşınacaq. Artıq qonşu Qazaxıstan da öz neftinin bir hissəsini bu kəmərlə daşımaqda maraqli oldugunu bildirib.

2002-ci il Azərbaycan neftçiləri üçün çox uğurlu oldu. İlkin neft layihəsi çərçivəsində "Çıraq" yatağından ilk neftin hasil olunmasının beş illiyi təntənə ilə qeyd olundu.

İl ərzində Bakı-Supsa kəməri ilə qrafik əsasında neft ixracı təmin edilib. Beş ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və Azərbaycan dövləti Supsadan 155 tanker neft yola salıb, o cümlədən Qərb ixrac boru kəməri marşrutu ilə dünya bazarlarına 21 tanker mənfəət nefti göndərilib. Şimal ixrac boru kəməri vasitəsilə 10,2 milyon ton neft nəql olunub. Buraya ARDNŞ-in AÇG-dən olmayan nefti də daxildir. Neft ixraci əməliyyatlarının başlanğıcından bəri Novorossiysk limanından 122 tanker yük yola salınıb. Bunun 20 tankeri 2002-ci ildə göndərilib. İndiyədək "Çıraq"dan təqribən 25 milyon ton neft çıxarılıb. İl ərzində bu yatağın orta gündəlik hasilatı nəzərdə tutulan 127 min barel əvəzinə 128 min barel olub. Ötən ilin axırlarında isə gündəlik orta hasilatın həcmi 140 min barelə çatıb. Cari il ərzində həyata keçiriləcək tədbirlər "Çıraq"ın gücünü bir qədər də artırmağa, gündəlik maksimum hasilat gücünü 145 min barelə çatdırmağa imkan yaradacaqdır.



Dünyanın enerji mərkəzlərindən birinə çevrilən Xəzərdə neft hasilatı ilbəil artır. Ancaq ehtiyatlarımız çoxdur. Zati-aliləri Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimindəki nitqində demişdir: "...Mən sizə deyirəm ki, təxminən 2007-2008-ci illərdə "Azəri-Çıraq-Günəşli" yataqlarından 50 milyon ton neft hasil olunacaqdır. Ancaq Xəzər dənizində bizim başqa yataqlarımız da var. Biz bir çox şirkətlərlə əməkdaşlıq edirik. 30 ölkənin şirkətləri ilə 21 müqavilə imzalamışıq, iş aparırıq. Əlbəttə, onlar da neft hasil edəcəklər, biz onlarla birlikdə çalışırıq. Ona görə gələcəkdə hətta Bakı-Tbilisi-Ceyhanın tutumu çatmayacaqdır. Ya onu genişləndirmək, ya da ikinci boru lazım olacaqdır". Bəli, tarix və reallıqlar həm Xəzərdə kifayət qədər karbohidrogen ehtiyatları olmadığını iddia edənlərin, həm də BTC-nin perspektivsizliyini söyləyənlərin cavabını verdi. Zati-aliləri Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində Xəzərin neft və qaz ehtiyatları inamla dünya bazarına çıxarılır, Azərbaycan inkişaf etmiş iqtisadiyyat və demokratik dəyərləri ilə dünya birliyinə gündən-günə daha sıx inteqrasiya olur.

Ölkəmiz yalnız xam neft ixracı ilə kifayətlənmir, neftdən alınan digər məhsullarımız da yaxın-uzaq xaricə göndərilir. Bunun üçün müasir texnologiya ilə işləyən ən yeni neft emalı müəssisələri və qurğuları mövcuddur. Möhtərəm Heydər Əliyev hələ birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikanın neft, neft-kimya, neft maşınqayırması və neft emalı sənayesinin yeni texnika və texnologiya ilə təchizatı sahəsində də böyük işlər görmüşdür. "Azərneftyağ"ın yaşı 130-u keçsə də, onun ən müasir texnologiya və qurğularla yeniləşdirilməsi həmişə cənab Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Məhz onun qayğısı və köməyi sayəsində birliyimizdə 1981-ci ildə ELOUAVT-6, 1994-1995-ci illərdə isə iki ədəd ELOUAVT-2 neftin ilkin emalı qurğuları inşa edilmişdir. Bu da bizə yüksək keyfiyyətli açıq rəngli neft məhsulları və həm də yağ üçün lazım olan qısa fraksiyalar alınmasına imkan vermişdir. Açıq rəngli neft məhsulları (ilkin qovma benzini, dizel yanacağı, reaktiv mühərrik yanacağı) dünya standartlarına uyğunlaşdırıldığından həm respublika daxilində işlədilir, həm də beynəlxalq bazarlarda müvəffəqiyyətlə satılır. Bu da ölkəyə xeyli valyuta gətirilməsi deməkdir.

Azərbaycan 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyini elan etmişdi. Lakin bu, yalnız deklarativ xarakter dasiyirdi. Həqiqi müstəqillik üçün çox çalışmaq, çox iş görmək tələb olunurdu. Bunu nə fərsiz A.Mütəllibov, nə də səriştəsiz

AXC-Müsavat cütlüyü iqtidarı bacardı. Onlar nəinki daş üstünə daş qoymadılar, əksinə, olanı dağıdaraq aradan çıxdılar. üstəlik, ölkəni məhvolma həddinə, fəlakət astanasına gətirdilər. Yalnız xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Zati-aliləri Heydər Əliyev bu çətin və şərəfli missiyanın öhdəsindən layiqincə gəldi. Ən əvvəl ölkədə möhkəm və dönməz sabitlik yaradıldı, Azərbaycan xaos, qanunsuzluq və özbaşınalıq bataqlığından qurtuldu, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi. Bundan sonra siyasi müstəqilliyin gerçəkləşməsi üçün iqtisadi bünövrə, bazis yaradılmasına başlandı, uğurlu islahatlar aparıldı. Yeni neft strategiyası yenidən və yeni əsaslar üzərində qurulan müstəqil Azərbaycan iqtisadiyyatının təməl daşına çevrildi. Ötən dövrdə görülən nəhəng işlərin bəhrəsi aydın duyulmaqdadır. İlk dəfə olaraq dövlət büdcəmiz 1 milyard ABŞ dolları həcmini keçərək cari ildə 1 milyard 200 milyon dollar olmuşdur. Neft fondundakı vəsaitin məbləği 730 milyon dollar, ümumilikdə milli valyuta ehtiyatı isə 1 milyard 300 milyon dollardır. Ötən dövrdə xalqın həyat səviyyəsi xeyli yüksəldilmiş, əmək haqqı və təqaüdlərin məbləği artırılmışdır.

Azərbaycanın siyasi və iqtisadi uğurları, ölkənin demokratikləşdirilməsi sahəsində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər respublikamızın beynəlxalq nüfuzunu da günbəgün artırır. ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı, Milli Olimpiya Komitəsinin sədri İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti və Büro üzvü seçilməsi xalqımızın sevincinə səbəb olmuşdur. İlham Əliyevin fitri istedadı və diplomatik məharəti, daim milli mənafeyimizi qoruması və müstəqil dövlətçiliyimizin mövqeyində möhkəm dayanması, yüksək məsuliyyət hissi ilə və yorulmadan çalışması qazanılan uğurun rəhnidir. Neft danışıqları prosesinin əvvəlindən işə cəlb edilməsi, müqavilələrin hazırlanması və bağlanılmasında yaxından iştirakı, yeni neft strategiyasının gerçəkləşməsinə verdiyi töhfələr ona ümumxalq məhəbbətini qazandırmışdır. İlham Əliyev diplomatiyasının gücü onun inandırıcılığında, real faktlara və həqiqətə arxalanmasında, möhkəm məntiqə söykənməsindədir. Yetkinləşmiş siyasətçiyə çevrilən cənab İlham Əliyev həmyaşıdları sırasında ən çox beynəlxalq görüşlər keçirən, dünyanın müasir və ən nüfuzlu siyasətçiləri tərəfindən tanınıb qəbul edilənidir. Onun YAP sədrinin birinci müavini kimi səmərəli fəaliyyəti bəyənilir və İlham Əliyevin siyasi gələcəyinə böyük ümidlər bəslənilir.

Bəli, Azərbaycanın zəngin neft və təbii qaz ehtiyatları, ondan xalqın mənafeyi naminə istifadə olunmasına xidmət edən yeni neft strategiyası, habelə bugünkü və sabahkı xoş günlərini təmin edəcək sınanmış siyasətçiləri var! Zati-aliləri Heydər Əliyevin bu sahədə gördüyü işlərdən hələ çoxları bəhrələnəcək və onun əsil qiymətini gələcək nəsillər verəcək! Dövlətin və xalqın işıqlı sabahına əminlik də, məhz buradan yaranır!